# "Kitabsevərlər klubu" təsis edilmişdir

***Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Qəbələ rayonu üzrə pilot layihəsi çərçivəsində cari ilin 6 mart tarixində Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz tərəfindən mədəniyyət müəssisələrinin tanıdılması, əhalinin maarifləndirilməsi və kitab oxumaq ənənələrinin bərpası məqsədi ilə Murad Əlibəyov adına Xırxatala kənd tam orta məktəbində "Kitabsevərlər klubu"nun təsis toplantısı keçirilmişdir.***

Sözügedən toplantıda İsmayıllı Regional Mədəniyyət və Turizm İdarəsinin Qəbələ rayonu üzrə nümayəndəsi Nargilə Qafarova, Qəbələ rayonu MKS-in direktoru Anar Rüstəmli, Xırxatala kənd məktəbinin direktoru Əhmədiyyə Hacıyev, mərkəzin şöbə müdirləri və mütəxəssisləri iştirak etmişlər.



Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin direktoru Asif Usubəliyev nazirliyin təşəbbüsü ilə icra olunan layihə - «Kitabxanaların fəaliyyəti və kitab oxuma mədəniyyətinin əhəmiyyəti haqqında» çıxış edərək kitabın insanları, cəmiyyəti uğurlu gələcəyə aparan yol olduğunu qeyd etmişdir.

Sonra mərkəzin mütəxəssisləri Elnarə Hacıyeva "Kitabxanalarda mədəni-kütləvi tədbirlərin təşkili, yeni metodlardan istifadə" və Ceyhun Əhmədov "Mütaliənin vacibliyi və onun rituallaşdırılması yolları" mövzusunda məruzələr etmişlər.

Tədbirdə Xırxatala kənd məktəbinin şagirdləri məşhur yazıçı və şairlərin əsərlərini səsləndirmişlər.

Klubun üzvləri - Xırxatala kəndinin sakinləri tədbir zamanı çıxış edərək nazirliyin sözügedən layihəsini yüksək qiymətləndirmiş, onun uşaqların tərbiyəsində, habelə kitaba olan maraqlarının artırılmasında əhəmiyyətli olduğunu bildirmişlər.

"Kitabsevərlər klubu"nun üzvləri arasında kitab oxuma ənənələrinin bərpası, mədəniyyət müəssisələrinə, o cümlədən kitabxanalara marağın artırılması istiqamətində fikir mübadilə aparılmışdır.

Tədbir çərçivəsində "Kitabsevərlər klubu"nun üzvlərinə klubun üzvü sertifikatı verilmiş, müxtəlif janrları əhatə edən kitablar hədiyyə olunmuşdur.

**"Qəbələ"**

# Məntəqə seçkiyə hazırdır

Azərbaycan Respublikası Prezidenti seçkiləri yaxınlaşır. Artıq seçki məntəqələrində hazırlıq işləri bütünlüklə başa çatmışdır.

116 saylı Qəbələ Seçki Dairəsinin 46 saylı seçki məntəqəsi Dizaxlı kəndində yerləşir. Seçki məntəqəsində seçicilərin dəqiqləşdirilmiş siyahısı asılmışdır.

Kənd icra nümayəndəliyi və məntəqə kollektivi seçicilərin siyahısını, şəxsiyyət vəsiqələrinin etibarlılığını bir daha nəzərdən keçirmişlər. Vaxtı keçmiş şəxsiyyət vəsiqələri dəyişdirilmişdir.

Məntəqə seçki komissiyasının sədri, katibləri və üzvləri arasında iş bölgüsü aparılmışdır. Seçicilərdən seçki günü başqa yerə getmək ehtimalı olanların, məntəqəyə gəlmək imkanı olmayan xəstələrin siyahıları da dəqiqləşdirilmiş, onların səsvermədə qanunauyğun iştirakları üçün tədbirlər müəyyənləşdirilmişdir.

Bir sözlə məntəqə secicilərin sərbəst, azad şəkildə öz seçimlərini etmələri üçün tam hazırdır.

# Bacarıqlı sənətkar

***Sənətin pisi yoxdur. Sənətkarın bacarıqlısı, səriştəlisi də var, yarımçığı da. Sənəti sevdirən sənətkardır.***

Süliddin Əzəmmədov hələ orta məktəb yaşlarından maşına, texnikaya böyük maraq göstərirdi. Hələ altıncı sinifdə ikən müəllimin tapşırığı ilə yazdığı «Gələcəkdə hansı peşəni seçəcəksən» adlı inşa yazısında Süliddin avtomobil təmiri ustası olacağını yazmışdı. Bu arzusunu gerçəkləşdirmək üçün Süliddin Mingəçevirdəki 41 nömrəli texniki peşə məktəbinə daxil olmuş, 1989-cu ildə oranı avtomobil çilingəri ixtisası ilə bitirmişdir.

Əsgəri xidmətini 1991-ci ildə başa çatdırlıqdan sonra Süliddin əmək fəaliyyətinə Qəbələ Avtomobil Nəqliyyatı Müəssisəsində çilingər kimi başlamışdır. 1993-cü ildən Hacıalılı kəndindəki avtomobil təmiri emalatxanasında işləyən Süliddin artıq 25-ci ildir ki, sevimli peşəsində çalışır. Sənətinə olan böyük sevgisi və uzun illərin təcrübəsi Süliddini öz peşəsinin əsil bilicisi olan sənətkara çevirmişdir. Əbəs deyil ki, dost-tanışları Süliddini avtomaşın «həkimi» adlandırırlar. Neçə-neçə sınıx-salxaq avtomobilə yeni həyat verən Süliddin həqiqətən sənətinin kamil ustasıdır. Süliddin öz övladlarını da insanlara, sənətə hörmət ruhunda tərbiyə edib.

**Cəlil SƏFƏRÇİNOV,**
**«Qəbələ» qəzetinin ştatdankənar müxbir postunun rəhbəri.**

# 2017-ci il ərzində Qəbələ rayonunun sosial-iqtisadi inkişafı haqqında məlumat

Ölkənin bütün bölgələrində olduğu kimi, 2017-ci il Qəbələ rayonunun iqtisadiyyatında və sosial-mədəni həyatında uğurlu nailiyyətlər əldə edilmiş, iqtisadiyyatın bütün sahələrində istehsalın həcmi artmış, bir sıra sosial obyektlər tikilərək istifadəyə verilmiş, yeni iş yerləri açılmış görülən işlərin nəticəsində əhalinin rifahı daha da yaxşılaşmışdır.

***Ərazi və əhali***

Qəbələ rayonunun ərazisi 1548 kv kilometrdir. 2018-ci ilin 1 yanvar tarixinə rayonda mövcud əhalinin sayı 105514 nəfər, hər kv kilometrdə sıxlığı 68.0 nəfər olmuşdur.

Rayondakı 1 şəhər, 3 qəsəbə, 60 kənd yaşayış məntəqəsində, 1 şəhər, 3 qəsəbə, 56 kənd icra nümayəndəliyi və 29 bələdiyyə fəaliyyət göstərir.

Əhalinin 13893 nəfəri yaxud 13,2 faizi şəhər, 22128 nəfəri yaxud 20,9 faizi qəsəbə, qalan 69493 nəfəri yaxud 65,9 faiz kənd yerlərində yaşayır.

Həmçinin rayonda 690 məcburi köçkün ailəsi və bu ailələrdə 2376 nəfər məcburi köçkün vardır.

2017-ci il ərzində Qəbələ rayonunda 1847 körpə doğulmuş, 505 nəfər vəfat etmişdir. Vəfat edənlərin 19 nəfəri 1 yaşa qədər uşaqlar olmuşdur.

Eləcə də il ərzində 752 nikah və 90 boşanma qeydə alınmışdır. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə nikahların sayı 68 nəfər, boşanalar isə 6 nəfər azalmışdır.

***İqtisadiyyatın ayrı-ayrı sahələri üzrə məhsul buraxılışı***

Ötən il iqtisadiyyatın əsas sahələri üzrə istehsal olunmuş məhsul və xidmətlərin ümumi həcmi 220924 min manat, adambaşına həcmi isə 2094 manat təşkil etmişdir.

**(Ardı gələn nömrəmizdə).**

# Peşə təhsil mərkəzində tədbir

Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində 8 Mart Beynəlxalq Qadınlar Gününə və peşə yönümü mövzusuna həsr olunmuş tədbir keçirilib. Tədbirdə məktəbin müəllim-mühəndis kollektivi və şagirdləri iştirak edib.

Məktəbin direktoru Azad Məmmədov tədbiri açaraq qadınları bayram münasibəti ilə təbrik edib.

Daha sonra Beynəlxalq Qadınlar Günü ilə əlaqədar direktor müavini Camal Rəsulov, məktəbin psixoloqu Zenfilə Hüseynova və digərləri çıxış edərək qadınlara öz təbriklərini çatdırıblar.

Yekunda məktəbin geyim üzrə dizayner və xalçaçı qrupları şagirdlərinin əl işlərindən ibarət "Bacarıqlı əllər" sərgi-müsabiqəsinə baxış olub. Müsabiqə qalibləri Fəxri



fərman və hədiyyələrlə təltif edilib. Şagirdlərdən Aişə İsmayılova və Elnarə Salahovanın əl işləri daha yaxşı hesab edilib.

Rəsmi hissə başa çatdıqdan sonra bayram şənliyi çay süfrəsi arxasında davam edib.

**Səfa ASLANOV.**
**İlkin Vəlizadə (foto).**
**«Qəbələ»**

# Vergi ödəyicilərinin nəzərinə

2017-ci hesabat ilinin yekunlarına görə

✦Gəlir vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident fiziki şəxslər gəlir vergisinin bəyannaməsini;

✦Mənfəət vergisinin ödəyiciləri olan rezident və qeyri-rezident hüquqi şəxslər mənfəət vergisinin bəyannaməsini;

✦Əmlak vergisinin ödəyicisi olan müəssisələr əmlak vergisinin bəyannaməsini

cari ilin aprel ayının 2-dən gec olmayaraq vergi orqanına təqdim etməyə və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməyə borcludurlar.

Bildiririk ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinin

57-ci, 58-ci və 59-cu maddələrinə əsasən

✦vergi hesabatını və vergi öhdəliyinin yaranmaması barədə arayışı müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisinə vergi orqanının qərarına əsasən 40 manat məbləğində;

✦büdcəyə çatası vergi məbləğini hesabatı təqdim etməməklə yayındırdıqda, vergi ödəyicisinə yayındırılmış vergi məbləğinin (kameral vergi yoxlaması nəticəsində hesablanmış əlavə vergi məbləği istisna olmaqla) 50 faizi miqdarında maliyyə sanksiyası tətbiq edilir.

✦vergi qanunla müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün, ancaq bir ildən çox olmamaqla vergi ödəyicisindən ödənilməmiş vergi məbləğinin 0,1 faizi miqdarında faiz tutulur.

Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi Sizə tövsiyə edirik.

* * *

Bildiririk ki, 2017-ci ilin yekununa görə fiziki şəxslər gəlir vergisi üzrə, hüquqi şəxslər mənfəət və əmlak vergisi üzrə bəyannamələrini 2 aprel 2018-ci il tarixindən gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergiləri həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

Əlavə məlumat üçün "195-1" Çağrı Mərəkəzinə və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

* * *

2018-ci ilin fevral ayına görə vergi ödəyiciləri tədiyəçisi olduqları

✦Əlavə dəyər vergisi bəyannaməsini,

✦Aksiz bəyannəməsini,

✦Yol vergisi bəyannəməsini,

✦Mədən vergisi bəyannəməsini,

✦Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannəməsini və

✦Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannəməsini

cari ilin mart ayının 27-dən gec olmayaraq vergi orqanına təqdim etməli və hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödəməlidirlər.

✦Xüsusi notariuslar 2018-ci ilin fevral ayı üzrə hesabladığı gəlir vergisini cari ilin mart ayının 27-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər (cari ilin 1-ci rübü üzrə bəyannamə aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

✦Daşınmaz əmlakı təqdim edın şəxslərdən ödəmə mənbəyində tutulan Sadələşdirilmiş verginin bəyannəməsi cari ilin mart ayının 27-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

✦Muzdlu işlə əlaqədar 2018-ci ilin fevral ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin mart ayının 27-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən bəyannamə illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri tərəfindən cari ilin 1-ci rübü üzrə bəyannamə aprel ayının 20-dən gec olmayaraq təqdim edilməlidir).

* * *

Təqdim edilməli bəyannamələrin və vergilərin ödənilməsinin son müddəti Novruz bayramı ilə əlaqədar cari ildə mart ayının 20-dən 27-nə keçirilmişdir.

* * *

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edimədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).

Hörmətli vergi ödəyiciləri, Siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi Sizə tövsiyə edirik.

* * *

ƏDV, Aksiz, Yol və Mədən vergisi üzrə bəyannamələrin təqdim edilməsinin və vergilərin ödənilməsinin son müddəti 27.03.2018-ci ildir.

Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsinin və Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 27.03.2018-ci ildir.

Daşınmaz əmlakı təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan Sadələşdirilmiş verginin bəyannaməsinin təqdim edilməsinin son müddəti 27.03.2018-ci ildir.

Cari ilin fevral ayı üzrə Xüsusi notariusların hesabladığı gəlir vergisinin və Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan verginin ödənilməsinin son müddəti 27.03.2018-ci ildir.

* * *

(2018-ci ilin mart ayının 4-ü, 11-i, 18-i və 25-i tarixlərində efirə gedəcək "İqtisadi Zona" verlişi üçün elan - Vergi Təqvimi)

* * *

27.03.2018-ci il tarixi aşağıdakı vergi bəyannamələrinin təqdim edilməsinin son günüdür:

✦Əlavə dəyər vergisinin bəyannaməsi

✦Aksiz bəyannaməsi

✦Yol vergisi bəyannaməsi

✦Mədən vergisi bəyannaməsi

✦Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan verginin bəyannaməsi

✦Daşınmaz əmlakı təqdim edən şəxslərdən ödəmə mənbəyində tutulan Sadələşdirilmiş verginin bəyannəməsi

✦Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannəməsi.

**Vergilər Nazirliyi**